# "Formula-1" gündəliyi

## Yeniliklər

"Formula-1" komandaları Azərbaycan Qran-prisində uik-end formatı ilə bağlı razılığa gəliblər. Avstraliya Qran-prisindən öncə Bakı mərhələsinin cədvəlində dəyişiklik edilməsinə dair danışıqların aparıldığı təsdiq olunub. Bu mərhələ ilin ilk uik-end sprinteri olacaq. "RacingNews365" portalına məlum olub ki, iki təsnifat sessiyasının keçirilməsinə dair 10 komanda arasında razılıq əldə olunub. Belə ki, şənbə gününə olan ikinci məşq sprint üçün yeni təsnifat yürüşü ilə əvəz edilib, Qran-pri təsnifatı isə cümə günü günorta keçiriləcək.

Müzakirəyə çıxarılan məsələlər arasında təsnifat formatının bir sürətli dairə ilə sınaqdan keçirilməsi olub, lakin bu ideya rədd edilib. Bunun yerinə, planın reallaşacağı təqdirdə, sprint üçün təsnifat üç seqmentdən ibarət adi formatda olacaq, ancaq onlar qısaldıla bilər.




## "Bridgestone" sürət yarışına qayıtmağı arzulayır

"Formula-1" üçün təkərlərin tədarükü üzrə kontrakt 2025-ci ilədək qüvvədədir və son on beş ildə yürüş şinlərinin inhisarçı tədarükçüsü İtaliyanın "Pirelli" kampaniyasıdır. Bu kampaniya 2025, 2026 və 2027-ci, ola bilər ki, 2028-ci illər üçün nəzərdə tutulan yeni tenderdə iştirak etmək niyyətindədir.

Kampaniyanın avtomobil idmanı bölməsinin rəhbəri Mario İzolla "Pirelli"nin böyük ehtimalla tenderdə iştirak üçün müraciət edəcəyini, lakin bunun təminatı olmadığını bildirib. Şin istehsalçısı vurğulayıb ki, yeni tələblər hazırda mövcud olan şərtlərdən fərqlənir. Bu səbəbdən italiyalılar onları araşdırır və bundan sonra qərar qəbul edəcəklər. Lakin "Auto Motor und Sport" portalının məlumatına görə, "Bridgestone" kampaniyası "Formula-1"ə qayıda bilər. Yaponiya şirkəti son dəfə 2010-cu il dünya çempionatı üçün təkər tədarük edib və hazırda "F-1"ə qayıtmaq imkanını nəzərdən keçirir.

## Mövsümə uğurlu başlanğıc

"Formula-1"in Böyük Britaniyaya məxsus "Aston Martin" komandası çempionatda özünün ötənilki göstəricilərini üstələyib. Yürüş kollektivi 2022-ci ildə ümumilikdə 55 xal toplayıb. Cari mövsümdə isə təkcə ilk üç Qran-pridən sonra "Aston Martin"in aktivində artıq 65 xal var.

"Aston Martin" ötən mövsümdə Konstruktorlar Kubokunda yeddinci yeri tutub. Komanda cari mövsümdə hazırda ikinci mövqedədir. Reytinqə Avstriyanın "Red Bull" komandası (123 xal) başçılıq edir, güclülər üçlüyünü 56 xalla "Mercedes" qapayır.

Azərbaycan. - 2023.- 6 aprel.- S.11.